TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

___________E.M. Ağayev

«08»_May______2015-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat ( xəstələr üçün)

**ESSENTİALE® N** venadaxili yeridilmə üçün məhlul
ESSENSIALE® N

**Tərkibi**
*Təsiredici maddə:* 5 ml məhlulun tərkibində soya paxlasının qurudulmuş substansiyasından alınmış fosfotidilxolin, 93% (3-sn-fosfotidil) xolin tərkibli: sinonimləri- "essensial fosfolipidlər","EPL®"- 250 mq.
*Köməkçi maddələr:* benzyl spirti, dezoksixol turşusu, natrium-xlorid, natrium-hidroksid, riboflavin, α-tokoferol, etanol, inyeksiya üçün su.

**Təsviri**
Şəffaf sarı məhlul.

**Farmakoterapevtik qrupu**
Hepatoprotektor dərman vasitəsi.
**ATC kodu:** A05C

**Farmakoloji xüsusiyyətləri**
Bu dərman vasitəsi - metabolik fəallığı pozulmuş qaraciyəri mənimsənilməyə hazır, yüksək energetik "essensial fosfolipidlərlə" təmin edir. Bu "essensial fosfolipidlər" kimyəvi quruluşuna görə təbii endogen fosfolipidlərlə ideal uyğundur. Onlar əsasən hüceyrə membranından keçərək qaraciyər hüceyrələrinə daxil olur.
"Essensial fosfolipidlər":
-qaraciyərin funksiyasını və qaraciyər hüceyrələrinin fermentativ fəallığını normallaşdırır;
-qaraciyərin enerji sərfini azaldır;
-qaraciyər hüceyrəsinin regenerasiyasına səbəb olur;
-neytral yağları və xolesterini, onların metabolizmini asanlaşdıran formalara keçməsini təmin edir;
-ödün fiziki-kimyəvi xüsusiyyətlərini stabilləşdirir.

**İstifadəsinə göstərişlər**
Qaraciyərin piy degenerasiyası (o cümlədən, şəkərli diabetdə); kəskin və xroniki hepatitlər, qaraciyərin sirrozu, qaraciyər hüceyrələrinin nekrozu, qaraciyər koması və prekoma, qaraciyərin

toksiki zədələnmələri; hamiləlik toksikozu; əməliyyatönü və -sonrası müalicə, xüsusən, hepatobiliar sahədə olan əməliyyatlar zamanı; psoriaz; radiasion sindrom.

**Əks göstərişlər**
Dərman vasitəsinin hər hansı komponentinə qarşı yüksək həssaslıq.
Bu məhlulun tərkibində benzyl spirti olduğundan 3 yaşa qədər uşaqların müalicəsində istifadə edilməməlidir.

**Xüsusi göstərişlər**
Yalnız şəffaf məhluldan istifadə edin.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Bu vaxta qədər məlum deyildir.

**İstifadə qaydası və dozası**
Həkimin başqa təyinatı olmadığı zaman venadaxili yavaş-yavaş gündə 5-10ml (1-2 ampul) və ya ağır hallarda 10-20ml (2-4 ampul) yeridilir.
2 ampulun möhtəviyyatı eyni vaxtda yeridilə bilər. Bir şprisdə digər dərman vasitələri ilə qarışdırmaq olmaz.
Parenteral yeridilmə ilə yanaşı müalicənin dərman vasitəsinin peroral qəbulu ilə tamamlanması tövsiyə edilir.

**Əlavə təsirləri**
Essensiale N yüksək dozalarda istifadə olunduğu zamanı nadir hallarda mədə-bağırsaq pozğunluqları yarana bilər (diareya).

**Buraxılış forması**
5 ml inyeksiya məhlulu, tünd şüşədən hazırlanmış, daralması olan ampullarda..
5 ampul, PVX-dan olan konturlu qablaşdırmalarda. 1 konturlu qablaşdırma içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
2°C -8°C temperaturda və  uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Resept əsasında buraxılır.

**İstehsalçı**
“A.Nattermann end Sie.QmbH”, Almaniya.
İstehsalçının ünvanı: Natermannallee 1, D-50829, Keln, Almaniya.

“Sanofi-Aventis S.A” , İspaniya.
İstehsalçının ünvanı: Avenida de Leqanes, №62, 28925 Alkorkon (Madrid), İspaniya.

İstehlakçının narazılıqları Rusiyadakı ünvana yönəldilməli:
115035, q.Moskva, ul. Sadovniçeskaya, dom 82, str.2.
Tel.(495) 721-14-00. Faks (495) 721-14-11.